Adamlar Şamili çox tez kəşf etmişdilər. Hələ tələbəliyindən əvvəl Beyləqanda orta məktəbdə oxuyanda onun uşaq səsi Mil düzünün havasına qovuşur, küləklərinə qarışır, eşidənlərin, dinləyənlərin ruhuna axırdı.

Elə Şamil özü də özünü tez tapmışdı. Çoxlu "əhsən"lərin, "sağ ol"ların, isti alqışların içindən tapmışdı özünü.

Beləcə, Şamil el içində, camaat arasında səsinin işığında böyümüşdü.

Mən Şamili mağarda, toy məclislərində çox görmüşəm. Elə onun konsertlərdə, səhnədən odlu oxlarını da az dinləməmişəm. Həmişə mənə elə gəlib ki, Şamilin ruhundan qalxan bir od onun üzündə, gözündə işıq olur, işığa dönür. Şamil özündən gələn işıq ilə ətrafında bir cazibə yaradırdı. Onu toyda, mağarda dinləyən, ya konsert səhnələrində tamaşaçısı olan hər kəsə elə gələrdi ki, işıq kənardan düşmür, elə Şamilin özündən yayılır. Allahdan gələn qismətdi. Şamil elə görkəmi ilə də harmonikdir, ahəngdardır, işıqlıdır, nurludur.

Onunla ünsiyyət tapan hər kəs Şamillə isti bir dostluğun bünövrəsini qoyar, sarayını qurardı. Həmişə el içində olmağı Şamilə meydan açıb. İnsanların hisslərinə, duyğularına səsi ilə doğmalaşıb.




Çoxlu mahnıları var. Sözünü də, musiqisini də özü yaradıb. Neçə-neçə adlı-sanlı sənətkarlar onun mahnıları ilə alqış qazanıb.

Qarabağ taleyi Şamilin də taleyindən keçib. Ağrısı, acısı ilə Şamilin yaddaşında iz qoyub. El sənətkarı, xalq adamı kimi Şamilömrünün bir qərinəsini də Qarabağ dərdi ilə yaşayıb.

Axır ki, bir zaman gəlib, söz də Şamilin varlığında özünə yer istəyib. Axır ki, yaddaşında örtülü xəzinə kimi Qarabağdan, el-oba içindən toplanıb qalmış canlı əhvalatları yazıya gətirib.

# SÖZÜN YOVŞAN QOXUSU

Şamilin yazı yoluna düşməsində "525-ci qəzet"in də xüsusi yeri olub. Vaxtilə həmin qəzetdə dərc olunmuş publisistik yazıları da ayrıca bölmə kimi oxuculara təqdim olunur. Bu yazılarla dövrə, zamana münasibət, dəyərlərin qorunması tələbi, bir sözlə, ziyalı əndişəsi öz əksini tapıb.

Həm də qeyd etdik ki, Şamil çoxlu mahnıların müəllifidir. Yadında, yaddaşında bir vaxt mətbuat səhifələrində ilişib qalmış həmin mətnlərdən də bir neçəsini tapıb toplamaq mümkün oldu. Bu mahnı mətnlərini də ayrıca bir bölmə kimi oxucu diqqətinə çatdırmağı özümüzə borc bildik.

Şamilin həyat yolu haqqında "Redaktordan" qrifilə verilən bu qeydlərin içərisində danışmağa lüzum görmədik. Çünki Şamilin öz yazıları onun mənəvi inkişaf yolunu kifayət qədər təqdim edir. Ancaq faktlara gəldikdə isə onu da oxucu diqqətinə çatdırmaq olar ki, "Gəl gedək yurda sarı" adlı bayatı-poemanın ayrı-ayrı hissələrində xalqımızın sevdiyi xanəndənin tərcümeyi-halı kifayət qədər görünür.

Şamilin bütün yazılarında xüsusi bir qoxu var. Ayrıca bir rəng var. Əgər bu rəngə ad verməli olsaq, elə "Qarabağ rəngidir" deyərik.

Şamilgilin dədə-baba yurdları Gəyən çölündə idi. Yazda, payızda Gəyən ətirli yovşanın pərvənişi ilə dəniz kimi dalğalanırdı.

Yovşan Turanın rəmzidir. Turanın at ilxıları yovşan içində doğulub-törəyirdi. "Yovşan qoxusu" kitabına yığılmış canlı hekayətlərin hər birindən yovşan qoxusunu söz donunda ruh axıracan özünə çəkir, hələ üstəlik doymur da.

Kitab hər bir müəllifin taleyində yaddaş abidəsi kimi yaranır. Onsuz da Şamil sənətində səsi ilə özünün kifayət qədər yaşarı obrazını yaradıb. Canlı xalq dilində yazıya aldığı hekayətləri də onun yurd sevgisinin, canlı xalq dilinə vurğunluğunun rənglərlə özünəxas naxışlarla bəzənmiş kitab xalısıdır.

Hazırlıq ərəfəsində yazıların dili və üslubu müəyyən mübahisə doğurdu. Artıq qeyd etdiyimiz kimi, Şamil canlı dili yaxşı bilir və onun yazılarının çöl - yovşan qoxusu da elə canlı dili ilə bağlıdır. Biz də müəllifin təkidlərinə əsasən onun canlı dilinə və üslubuna toxunmadıq.

Şamil nə yazıçılıq, nə də şairlik iddiasında deyil, amma birmənalı şəkildə deyirəm ki, onun "Yovşan qoxusu" kitabı həmişə oxunacaq, əl-əl gəzəcək. Çünki bu kitabın səhifələrində sözlə cana gəlmiş insanlar var. Bu insanları Şamilin yazdığı kimi tanıdıqca tam əmin olursan ki, onların ölməzlik taleyi var.

Şamildən cəmiyyətə, insanlara çox şey qalacaq. Dostlarının yaddaşında istiqanlı, doğma Şamil kimi qalacaq. Qarabağın sevilən xanəndəsi kimi qalacaq və bir də "Yovşan qoxusu" ilə qalacaq.

Əli Rza Xələfli

*24.11.2021*